# Qara Qarayevin yetirməsi

## *Müslüm Maqomayevin tələbə yoldaşı*

**Professor Afaq Cəfərova Türkiyənin ilk onluğunda yer alan Ərciyəz Universitetinin Güzel Sanatlar fakültəsindən (Azərbaycanda İncəsənət İnstitutu – Ə.X.) təqaüdə çıxana qədər şərəfli bir sənət yolu kecib. O, 1961-ci ildə Bakı Orta İxtisas Musiqi Məktəbini (indi Bülbül adına) bitirmiş, elə həmin il də Azərbaycan Milli Konservatoriyasının bəstəkarlıq fakültəsinə daxil olmuşdur. Dünya şöhrətli bəstəkar Qara Qarayevin sinfində 5 il təhsil aldıqdan sonra, 3 il də onun aspirantı olmuşdur. 1968-ci ildən Konservatoriyada çalışan professor Afaq xanım sonralar orada dekan olmuşdur. 2000-ci ildən isə Ərciyəz Universitetinin güzel sanatlar fakültəsinin qurucu müəllimlərindən biridir. O, həm də yurd nisgilli dərddaşımdır. Valideynləri əslən Qərbi Azərbaycandan, Uluxanlıdandır.**



**– Afaq xanım, söhbətimizi Zəngibasar mahalımızdan, soykökünüzün dünyaya göz acdığı Uluxanlımızdan başlamaq istəyirəm. Yaddaşınızda nələr həkk olunub?**

– Atam partiya işçisi olub. Vedibasarda, Tiflisdə, Azərbaycanda yüksək vəzifələrdə çalışıb. Bakıda işləyərkən mən doğulmuşam. Amma atam Məmməd Həsən oğlu Cəfərov da, anam Zöhrə Əli qızı Əliyeva da Uluxanlı doğumludur. Atamın atası da, anamın atası da, bir sözlə, soykökümüz Zəngibasara bağlıdır. Biz hər yay tətilində Zəngibasara – Aşağı Neciliyə gedirdik. Oy-oy... Evimizin arxasından su axırdı. Arx deyirdilrər. Evin kölgəsində, arxın kənarında palaz sərib orda səhər yeməyini yeyərdik. Samovar qaynadardıq. Xalam bizə gül mürəbbəsi ilə (deyəsən, “gülxar” deyərdilər) çay verərdi. Qovurmalı yeməklər... Xalam bağçadan üzüm, ərik, xiyar yığıb gətirərdi. İndiyəcən o əriyin, xiyarın qoxusu burnumdadır. Bizim məhəllənin bir təndiri vardı. Təndirdə növbə ilə qışlıq lavaş bişirərdilər. Sonra da südlü fətir, qalın... Axsamdan xəmiri yoğurardılar. Bütün qohumlar, qonşular birbirinə kömək edərdi. Sanki bir nağıl yaşamışıq....

**– Bu günlərdə Ermənistan televiziyalarında “1948 -1953 illərdə azərbaycanlılara qarşı heç bir deportasiya olmayıb” “arqumenti” yaman qanad açıb. Sadəcə, yerdəyişmə olub, deyirlər. Özü də əməkçilərin “könüllü ərizəsi” əsasında. Yəni Azərbaycan bununla bağlı heç bir iddia qaldıra bilməz. Mənim də qohumlarımın o zaman necə “könüllü ərizə” yazmalarından” xəbərim var. Vedibasarın Avşar kəndindən zorla deport edilən Cəfər dayımın (nənəmin qardaşı-Ə.X.) ürək yandıran söhbətlərini özüm dinləmişəm. Yəqin ki, sizin də qohumlarınızdan bu mövzuda eşitdikləriniz var?**

– Heç bir konüllülük yox idi. Zorla qovdular. Qohumlarımızın çoxu o zaman qovuldu. Bir qısmi Ucarın ilan mələyən çöllərinə, bir qismi də Gəncəyə köçürüldü. Ucarın iqlimi ilə Zəngibasarın iqlimi arasındakı kəskin fərqdən bizimkilər zülm çəkdi. Kim isti yuvasını qoyub gələr? O zaman bizləri dədə-baba yurdumuzdan çıxarıb, xaricdən erməniləri gətirmişdilər. Onları da aldadıb gətimişdilər.

**– Sonra 1988-ci il gəldi... son etnik təmizləmə...**

– 1988-ci ildə bütün qohumlarım xəstəlik tapdı. Danışırdılar ki, onları kəndin mərkəzində sıraya düzüb heydən düşənə qədər doyürmüşlər. Mağazaya gedə, çörək belə ala bilmirmişlər. Elə vəhşiliklər gördülər ki, canlarını götürüb qaçdılar. Bəziləri Zəngibasardakı imarətlərini, bağbağatlarını Bakıda iki-üç otaqlı evlərə dəyişmək məcburiyyətində qaldı. Bəziləri heç evlərini də dəyişə bilmədi. Yazıqlar yenidən ev qurdular. Anamla onlara ev axtarırdıq. Səhər çıxırdıq, axşam gəlirdik. Taqətimiz qalmırdı. Düşünün, Aşağı Necili tamam azərbaycanlılar idi. Qohumlarımın bir qısmı Yuxarı Necilidə yaşayırdı. Orda da tam azərbaycanlılar idi. İndi oralarda bir nəfər azərbaycanlı yaşamır. Araz çayı tərəfdə İmamzadə vardı. İmamzadəni də dağıdıblar. Kənd qəbiristanlığını da şumlayıblar. Nə qədər tarixi abidələrimizi məhv etdilər. Bakının mərkəzində isə Erməni kilsəsi hələ də durur. İrəvanda bizim məscidləri nə günə qoydular!

**– Doğmalarınızın İrəvanla bağlı söhbətlərini xatırlayırsınızmı?**

– Qardaşım rəhmətə gedəndə 40 gün qapımız bağlanmadı. Atamın anası – Həliməxatunun başına İrəvandan köçmüş qohumları, rəfiqələri yığışardı. Urqiyyə xanım, Ceyran xanım... Yalnız İrəvan xatirələrini danışar, heç yorulmazdılar. Nənəm deyərdi ki, Urqiyyə xanım İrəvan xanının nəslindəndir.

Anamın bir qardaşı qızı İrəvanda yaşayırdı. Zəngibasara gedəndə həmişə bizi qonaq çağırardı. Həyətlərindən cay axırdı. Bağ-bağat vardı. Səhv etmirəmsə, Təpəbaşı məhləsi idi. 1950-ci illər idi. İndi oralarda kimsəmiz yox...

**– Doğrudur, Afaq xanım. Amma həyat davam edir. Taleyin parlaq səhifələri, şanslar da olur. Qara Qarayevdən dərs almaq, Müslüm Maqomayevlə eyni məktəbdə oxumaq şansı... Siz öz yaradıcılığında Şərq və Qərb musiqi mədəniyyətlərini ustalıqla sintez etmiş dünya şöhrətli bəstəkar Qara Qarayevin 100 illiyi ilə bağlı 2018-ci ildə Ərciyəz Universitetində kecirilən tədbirdə onun yadigarı olan canlı bir əfsanə idiniz.**

– Şans öz yerində. Bu, boyük bir xoşbəxtlik idi. O cür zəngin mənəviyyatlı insandan 8 il dərs almaq – 5 il Milli Konservatoriyada, 3 il də aspirantı olaraq! Diplom işimi – “Vokal silsiləsi”ni yazarəkən Qara Qarayev məsləhət gördi ki, Azərbaycanın klassik və müasir şairlərinin əsərləri əsasında gözəllik kateqoriyasını çalışım. Əsərdə XX əsr şairlərimizə (N.Xəzri, F.Qoca və s.) Füzulidən möhtəşəm cavab gəlirdi. Nəbi Xəzrinin “Dəniz”inin gözəliyi ilə Füzulinun ”Söz”ünün sehrindən yaranan musiqi əsərini Azərbaycan Dövlət Simfonik Orkestri ifa edərkən salon dolu idi. Tələbəsinin uğruna gözləri yaşaracaq dərəcədə sevinən bir müəllimi hamı görürdü.

Bilirsiniz ki, Qara Qarayev SSRİ Ali Sovetinin deputatı idi. Bir də görürdün dərs zamanı qapı açıldı, kimsə icazəsiz içəri girdi. Seçicilərindən olurdu. Heç zaman onlara sərt təpki vermirdi. Dərhal bizdən 10-15 dəqiqə icazə alıb onları dinləyirdi. Sonra bizimlə lazımi qədər əlavə çalışırdı. Qara Qarayev həm də SSRİ Bəstəkarlar İttifaqı İdarə Heyətinin katibi idi. Bəzən Bakıda olmayanda dərslərini kecə bilmirdik. Həmin dərsləri bazar günü evində keçirdi. Dünya miqyaslı ünlü bir sənətkar müəllimliyinə belə ciddi yanaşırdı. İndi Türkiyədə deyirlər: bu mənim çırağımdır (yəni şagird - Ə.X.). Bu kəlmənin məna tutumu çox xoşuma gəlir. Çırağın anlamında bir aydınlıq var. Qara Qarayev tələbələrinə gələcəyə işıq saçan adamı kimi yanaşırdı.

**– Afaq xanım, Müslüm Maqomayevlə bağlı nələri xatırlayırsınız?**

– Maqomayevlə çox yaxınlığımız olmayb. Məktəbdə dəhlizin sağında bizim, solunda onların sinifi idi. Müslümün işi ancaq oxumaq idi. Tənəffüs olan kimi başlayırdı oxumağa. Bizim bir zavuçumuz (tədris hissə müdiri -Ə.X.) vardı, Əziz müəllim, hey gəlirdi ki, Müslüm səs salmasın. Kim idi ona qulaq asan! Hər tənəffüsdə Müslümün başına yığışırdıq. Pianonu da özü çalırdı. İndi də elə bilirəm Yevgeni Oneginin ariyasını oxuyur bariton səslə. Çox mədəni şagird idi. Bizim məktəbdə vokal sinfi yox idi. 8-ci sinfi bitirdikdən sonra Müslüm getdi.

**– Bəs, necə oldu ki, Siz Ərciyəz Universitetinə gəldiniz?**

– 1995-ci ildə həyat yoldaşım vəfat etdi. Türkiyədə çalışan ailə dostlarımız uşaqları dolandıra bilmədiyimi görüb, təklif etdilər ki, qardaş ölkədə işləyim. Sonra rəhmətlik Müssəvər Əsgərov (Ərciyəz Universitetinin Güzel Sanatlar fakültəsində “Koro ve orkestra” bölümünün qurucusu olan soydaşımız) mənə zəng etdi ki, bəstəçilik bölümü yaranıb, amma müəllim yoxdur. Dərhal gəl. Konservatoriyada dekan idim. Fərhad Bədəlbəyli məni buraxmaq istəmirdi. Vəziyyəti anlatdım, uşaqların təhsil haqqını ödəyə bilmədiyimi dedim. İki əli ilə başını tutdu... Maddi vəziyyətimi yoluna qoyub, qayıdacağımı dedim. Ayaqlarım üstə durmağa, iki övladıma sahib çıxmağa məcbur idim. Ərciyəz Universiteti həyatımın ən ağır anlarında dəstəkçim oldu. Artıq 2022-ci ildən təqaüddəyəm. Əməkli olanda universitetimizdə vida görüşü kecirilirdi. Rektor da o görüşə gəlmişdi. Fakültəmizin dekanı, professor Aygün Aykutun əməyimə yüksək dəyər verməsi yaman kövrəltdi məni. Salonda tələbələrim oturmuşdu. Artıq onlar tələbə deyil, müəllimdirlər. Bilirsiniz, necə xoş hissdir əməyinin bəhrəsini görmək? Türkiyənin müxtəlif universitetlərində tələbələrim çalışır. Zəhmətim boşuna getmədi. İndi qızım Nərgiz də Ərciyəz Universitetinin Güzel Sanatlar fakültəsində çalışır. Bizə qucaq açan, Azərbaycan qədər əziz olan Türkiyədə ixtisasım üzrə mütəxəssislərin yetişdirilməsində əməyim olduğuna görə çox məmnunam.

Təbii ki, biz də ömrünün 23 ilini Ərciyəz Universitetinin Güzel Sanatlar fakültəsinə həsr edən Afaq xanım kimi dəyərli ziyalılarımızla qürur duyuruq.

**Əsli XƏLİLQIZI**

**Türkiyə**